Osman Fermanoğlu

## Dost Meydanında

*Ramiz Kərəmi xatırladım*

Hər tərəf basırıq, hər yan dolama,
Qanı qarışığıq, törəmiz əskik.
Tələsib boş yerə ocaq qalama;
Sacımız gülləyir, kürəmiz əskik.

Üzgündü canımız, atımız yorgun,
Hər tərəfi basıb kol- koslu yulgun,
Ögey baxışlardan çiçəklər solgun,
Arımız çəlimsiz, şirəmiz əskik.

Çıxmaq istəsək də  qəfəsimizdən,
Tənbəllik boy verir həvəsimizdən,
Yad hava boylanır nəfəsimizdən,
Sazımız köksüzdür, cürəmiz əskik.

Alışa bilmirik çıraq oduna,
Düzlənə bilmirik sıra adına,
Nəsə uydursaq da misra adına,
Sözümüz evsizdir,  sürəmiz əskik.

Osman, təpərsizin yoxsa canında,
Qılıncı pas atar paslı qınında,
Diş kimi seyrələn dost meydanında
Bir Ramiz kəm gəlir, bir Ramiz əskik.